ədalət.- 2021.- 2 mart.- S.8.

# NURLU ÖMRÜN HEKAYƏTİ

*(Mənsur poema)*

Sən əsl ziyalı idin. Ətrafına yayılardı işığın, şölən, nurun. Sən məğrur insan idin. Hər yerdə, hər vaxt görünərdi, qürurun, məğrurluğun...

Sən böyük insanlığınla bir ağsaqqal idin. İnsan adlı yeriyən, bir nur haləsi, işıq şəlaləsi idin...

Sən yurd-torpaq ürəkli, millət vurğunu idin. Ulu Ağdamımızın sayılan, seçilən övladı idin. Qarabağın, şair ürəkli, saf diləkli, bir ziyalısı idin...

Ömrünü gün-gün, ay-ay, il-il müəllim kimi yurdunun övladalrına həsr etmişdin. Yetişdirdiyin tələbələrin sorağı səni ruhlandırardı, fərəhləndirərdi.

Hər tələbənin uğuru səni göyə qaldırardı... Köksünü Sevinc duyğuları pərvazlandırardı. Verdiyin dərslərin, məsləhətlərin, xeyirduan yüzlərlə şagirdinin əlindən tutdu, yoluna yaşıl işıq saldı...

Bütöv bir ömür yaşadın, müəllinliklə bərabər yazı-pozu ilə məşğul oldun. Müxtəlif məzmunlu kitab-övladların dünyaya gəldi. Oxucu auditoriyası qazandın, oxundun, tanındın, sevildin...

Ailədən başladığın xeyirxahlıq yolu qonşulara, elinə və nəhayət, ölkənə yayıldı. Özün qaçqın olaola, imkanından - imkansıza ürəklə, səmimiyyətlə payladın. Sən hər əl tutanda daxilən rahatlandın, köksünü bir könül xoşluğu oxşadı. Kiməsə lazım olmağın Səni kövrəltdi, duyğulandın, elinə-obana hər vaxt bir oğul məhəbbətiylə yandın...

Sən babalarımız misalı köhnə kişi idin. Səbrli, təmkinli, insanı qiymətləndirən, hər kəsin yerini bilən, barışıq yaradan, qan yatırdın - sülh insanı idin. Göydə - Allaha inamlı, yerdə imanlı, insaflı idin...

Hərdən deyərdin: "Biz bir-birimizi bağışlamağı və qiymətləndirməyi bacarmalıyıq". Deyərdin: "Biz bir-birmizə yanmasaq, əllərdən tutmasaq, söykək olmasaq, yaşamağımızın - ömrümüzün işığı kimisə isitməsə, onda həyatımız mənasız olar...

Böyük Türk sənətkarı Nazim Hikmətin yazdığı bu misralar sənin həyat yolunun yol göstərəniydi:

***Sən yanmasan,***
***Mən yanmasam,***
***Biz yanmasaq***
***Necə çıxar***
***qaranlıq aydınlığa...***

Qaranlıqların aydınlığa çıxması sənin amalın, məramın, məqsədin idi. Bir ömrü şam kimi əridin. Elm "bağında" neçə-neçə tələbə ağacı əkdin, zəhmət çəkdin, dünyaya səs saldın dünənki şagirdlərin.

İllər boyu çəkdiyin zəhmətinin barı-bəhrəsi olan yetirmələrinin uğuru səni kövrəltdi, duyğulandırdı. Qədirbilən tələblərin Səni soraqladı, axtardı, tapanda, öz-özünə M.İsmayılın iki misrasını pıçıldadın:

*Hardasa, hardasa, bizi duyan var,*
*Hələ yaşamağa dəyər bir az da.*



Sən inamla yaşadın, ürəklə yazdın-yaratdın, müəllim adının yanına bir yazar adını - imzasını atdın... Axı səni bir vaxt sevimli, ağ günlü Ağdamımızda "Lenin yolu" qəzetində məsul katib idin.

Həmin vaxtlarda ürəyində göyərən, pöhrələyən yazmaq eşqi sonralar ömrünün yol yoldaşı oldu...

Doğulduğun, boya-başa çatdığın Ağdamının Novruzlu kəndi ürəyinin döyüntüsünü nizamlayan bir məkan, bir yurd idi. Sən başdanayağa - eşq idin, aşiq idin; - Vətən aşiqi, el aşiqi, insan aşiqi, elm aşiqi, sənət aşiqi!!!

Ürəyinin hər döyüntüsü Vətən, Qarabağ, Şuşa, Ağdam, Laçın deyirdi. Öz-özünə pıçıldayırdın haçan son qoyulacaq bu nisgilimizə, haçan əlvida deyəcəyik qaçqınlıq adlı günümüzə?! Haçan yurda qovuşmaq sevinci qonacaq üzümüzə, haçan Tanrımız haqq əlini qoyacaq kürəyimizə, haçan göyərəcək haqq işimiz, haçan çatacağıq arzu-diləyimizə...

Bütün varlığınla köhnə kişiydin. Tanrı sevgili bir övliyaydın. Hər vaxt qarabağlıların önündə olardın, xeyrində-şərində olardın... Torpaq, el-oba nisgilini, həsrətini yurdun övladlarını görməklə ovudardın, təsəlli tapardın...

Sənin köksündə bir atəş vardı. Həmin atəşin hesabına yaşayardın-yaradardın. Vətən sevincinin, torpaq məhəbbətinin mənbəyi sinəndəki atəşdəydi. Bu atəşin-odun ümid adlı övladı, ən böyük təsəllin idi. Sözünün əvvəli Ağdamla başlar, sonu da Ağdamla bitər. Səni bir ümid, bir inam Ağdama səsləyirdi...

Və deyərdin:

- Ağdamda görüşmək arzusuyla. Bu üç sözdən ibarət bir kəlmə-istək Sənin inamının təsdiqi idi ki, hökmən Ağdam alınacaq, bu ulu Oğuz yurdunda zəfər şeypuru çalınacaq!

Qarabağın, Şuşanın, Laçının, Ağdamın alındığının şahidi oldun, bu xəbəri eşitdin, teleməkanda gördün, daha nə ola bilərdi dərdin? Yenə də dilində illərlə əzizlənən ən istəkli, ən böyük arzunuydum: - Ağdamda görüşmək arzusuyla, məramın canlı olaraq baş tutması da, sevindin, şadlandın, "qisas qiyamətə qalmaz" məsələmizə bir daha inandın... Qarabağın qaytarılması Ulu Yaradanın bizim millətə sevgisi-lütfü idi!!!

Və yenə də, və bir daha sənin ən əziz kəlməni, Ağdamda görüşmək arzusuyla fikrimi sənə həsr olunmuş "İşığın övladı" adlı poemanın epiloqunun sonluğunu, müəllif arzusu kimi xatırlamağımız yerinə düşər:

*... Gəlsin ustad Səlim nəvələriylə,*
*Gəlsin Qarabağın ziyalı oğlu!*
*Yaqubun ötdüyü ağ mənsuriyyə,*
*Yol olsun tacımız Şuşaya doğru!*
*Ağdamda öpüşmək həsrəti ilə!*
*Ağdamda görüşmək arzusu ilə!!!*

Fəqət Sənin getmədiyin Qarabağa nəvələrin gedəcək:

Sənsiz, səninlə gedəcəklər, nəvələrin gedəcəklər, Ağdamı ağ günlərdə Sənin arzularını göyərtməyə, çiçəkləndirməyə, baba yurduna sahib olmaq üçün, sabahkı nəsillərə şərait yaratmaq üçün gedəcəklər - Ağdamda görüşmək arzusu nəvələrinin qisməti imiş - ruhun bu gəlişi eşidən kimi enib gələcək, - Çay evinin yanında bizi qarşılayacaq və ürəyi bildiyi doğma yurdun torpağı üstündə şadlanıb, bir könül xoşluğu yaşayacağıq...

... İndi torpaq həsrəti, yurd sevgili ürəyin sakitdi. Şuşamızın Cıdır düzündə bütün Qarabağa - Azərbaycana sevinclə baxan ruhun: "Qarabağ Azərbaycandır!" nidasına əhsən-alqış deyir...

**Eldar QARQARÇAY**